# Beynəlxalq enerji bazarında etibarlı tərəfdaş

***Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən əlverişli geostrateji mövqedə yerləşməsi və zəngin karbohidrogen mənbələrinə malik olması ölkəmizin regionlararası iqtisadi əlaqələrin yaradılması və gücləndirilməsi baxımından əhəmiyyətini daha da artırır. "Cənub Qaz Dəhlizi"nin istismara verilməsindən sonra isə Azərbaycanla "Köhnə dünya" arasında strateji siyasi-iqtisadi əlaqələrin daha da möhkəmlənəcəyi ilə bağlı gözləntiləri daha da gücləndirir. Şübhəsiz, rəsmi Bakının Avropa ilə enerji dialoqunda yeni mərhələnin başlanması əlaqələrin daha da inkişafına və yeni iqtisadi imkanların yaranmasına təkan verəcək.***



**(ardı 3-cü səhifədə)**

# Beynəlxalq enerji bazarında etibarlı tərəfdaş




*(əvvəli 1-ci səhifədə)*

Ümumiyyətlə, "Cənub Qaz Dəhlizi" dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan "Cənub Qaz Dəhlizi"nin seqmentlərini "Şahdəniz-2", Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələri təşkil edir. "Cənub Qaz Dəhlizi" dünya neft-qaz sənayesində bu vaxtadək olan ən mühüm və iddialı layihələrdən biridir.

Prezident İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində uzun illər ərzində bu mühüm layihəni həyata keçirmək üçün Azərbaycanın çox işlər gördüyünü, tərəfdaşlarla birgə işlədiyini diqqətə çatdırmaqla yanaşı, "Cənub Qaz Dəhlizi"nin XXI əsrin ən böyük infrastruktur layihələrindən biri hesab olunduğunu vurğuladı: "Uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizi Bakıdan Adriatik dənizinin dibi ilə, yüksək dağlıq ərazilərdən keçərək İtaliyaya çatır. Bu, texniki baxımdan çox mürəkkəb və əlbəttə ki, çox bahalı layihədir".

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişdi. Bu boru kəməri sistemi elə layihələndirilmişdir ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilə bilməsi üçün onun ötürücülük gücü iki dəfə artırıla bilər. "İl Sole 24 Ore" qəzetinin jurnalistinin verdiyi "Avropa İttifaqı Sizdən daha çox təbii qazın təchiz edilməsi ilə bağlı kömək istəsə, Siz bu müraciəti mümkün qədər tez bir zamanda təmin etməyə hazır olacaqsınızmı?" sualına cavabında Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın hasilatı artırmaq, ixracı artırmaq imkanı var. Bununla belə, dövlət başçımız bunun, sözsüz ki, avropalı istehlakçıların tələbindən asılı olacağını da diqqətə çatdırdı. Avropa Komissiyasının bu prosesdə Azərbaycana kömək göstərdiyini vurğulayan Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi"nin Məşvərət Şurasının gələn ilin fevralında keçiriləcək növbəti sessiyasında gələcək addımların planlaşdırılacağı barədə məlumat verdi. İndi komanda böyüyür, çünki biz artıq Avropanın təchizatçısı olmuşuq, – deyən ölkə başçısı əlavə etdi ki, yanvarın 1-dən başlayaraq Azərbaycan İtaliya, Yunanıstan və Bolqarıstanı 7,2 milyard kubmetr qazla təchiz etmişdir. Prezident İlham Əliyev, həmçinin bildirdi ki, gələn il bu rəqəm 9 milyard, 2023-cü ildə azı 11 milyard kubmetr olacaq. Son məlumatlara görə, bu gün TANAP və TAP ilə 12,4 milyard kubmetrdən çox təbii qaz nəql edilmişdir.

Əlbəttə, strateji əhəmiyyətli infrastruktur layihəsi hesab edilən "Cənub Qaz Dəhlizi"nin istifadəyə verilməsi Avropanın enerji təhlükəsizliyinə yeni elementlər gətirəcək. Mütəxəssislərin fikrincə, "Cənub Qaz Dəhlizi" Avropa ölkələrinin enerji təminatında yeni imkanlar açmaqla yanaşı, həm də qaz tədarükü mənbələrini şaxələndirməyə, yeni alternativ marşrutlardan istifadə olunmasına da şərait yaradacaqdır. Prezident İlham Əliyev İtaliya qəzetinə müsahibəsində vurğuladı ki, hasilatı artırmaq üçün sərmayə yatırılmasına ehtiyac var və nəhəng qaz yataqlarına malik Azərbaycan hasilatı artırmağa hazırdır: "Hasilatı artırmaq üçün biz, əlbəttə ki, investisiya yatırmalıyıq və bunu etmək üçün bizim istehlakçılarla müqavilələrimiz olmalıdır. Beləliklə, birincisi müqavilələr, ikincisi investisiya və üçüncüsü qaz. Prosesin mərhələlərinin ardıcıllığı belədir. Lakin biz hazırıq, sizin qeyd etdiyiniz kimi, nəhəng yataqlarımız var, tam yeni, müasir infrastrukturumuz var, Avropanın digər yerlərinə də bağlayıcıların çəkilməsi mümkündür. Siz Balkanları qeyd etdiniz və mən Mərkəzi Avropanı əlavə edərdim. Bu, bizim üçün təchizatın şaxələndirilməsi və istehlakçılar üçün şaxələndirmə olacaq". Bu gün Xəzər dənizinin regionun enerji mərkəzinə çevrilməsi və Azərbaycanın bu prosesdə güclü rol oynaması heç kimdə şübhə doğurmur.

Qeyd etmək vacibdir ki, hazırda Avropa İttifaqı neftin 82 faizini, qazın 57 faizini idxal edir və bu göstəricilərə görə o, dünyada ilk yeri tutur. Hesablamalara görə, 2030-cu ilədək Avropa İttifaqının qaz tələbatı 700 milyard kubmetrədək artacaq. Digər tərəfdən, bu tələbatın idxal hesabına ödənməsi də getdikcə artacaqdır. Belə bir perspektiv fonunda Avropa İttifaqının Azərbaycanla enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq etməsi çox böyük strateji əhəmiyyət daşıyır. Nəzərə alsaq ki, Xəzər dənizinin təbii qaz ehtiyatları hazırda "Köhnə dünya" üçün alternativlik baxımından yeganə mənbə olaraq qalır, o zaman "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılmasının həyati əhəmiyyət daşıması barədə deyilənlər həqiqəti əks etdirir. Buna görə də, təsadüfi deyil ki, "Cənub Qaz Dəhlizi" Avropa və Xəzər regionu arasında enerji və nəqliyyat əlaqəsi yaradacaq yeni İpək Yolu rolunu oynayan vasitə kimi qəbul edilir.

"Cənub Qaz Dəhlizi"nin bir hissəsi olan TAP boru kəməri Avropada təxminən 7 milyon ailəni enerji ilə təmin edəcək. Xatırladaq ki, ötən il 31 dekabr tarixində TAP vasitəsilə Azərbaycandan kommersiya məqsədli qazın nəqlinə başlanılmışdı. TAP laihəsi Xəzər dənizi və Aralıq dənizi regionlarında sabitliyin qorunmasına töhfə verəcək. Xatırladaq ki, 3 mart 2016-cı il tarixində Avropa Komissiyası "Cənub Qaz Dəhlizi"nin bir hissəsi olan TAP tikintisini təsdiqləmişdi. AK təmsilçilərinin fikrincə, TAP layihəsi enerji bazarında rəqabəti pozmadan enerji təhlükəsizliyini yaxşılaşdırmalı və enerji mənbələrini şaxələndirməlidir. Mütəxəssislərn hesablamalarına görə, layihənin tam olaraq işə düşməsi Azərbaycan üçün bir sıra mühüm dividendlər qazandıracaq. Bundan başqa, dəhlizin üzərində yerləşən bütün ölkələrlə Azərbaycan olduqca sıx siyasi tərəfdaşlıq qazanacaq. Aydındır ki, belə şaxələndirilmiş enerji dəhlizləri Şərq və Qərbi birləşdirmək baxımından xüsusi əhəmiyyət kəsb edir və mühüm iqtisadi nəticələr əldə etməyə imkan verir. Ən əsası, transregional qaz layihələrinin reallaşdırılması ölkənin qlobal iqtisadiyyatda mövqeyinin daha da gücləndirilməsinə müsbət təsir göstərəcək və Azərbaycanın təkcə enerji ixracatçı ölkə kimi deyil, həm də onu nəql edən tranzit ölkə kimi əhəmiyyətini artıracaq.

Beləliklə, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu artır. Avropa İttifaqına üzv olan ölkələrin enerji təminatı üçün nəzərdə tutulan neft-qaz boru kəmərlərinin siyasi, iqtisadi əhəmiyyəti, perspektivi ətrafında aparılan müzakirələrdə də Azərbaycan amilinə xüsusi diqqət yetirilir. Şübhəsiz, Avropa üçün Azərbaycan qlobal qeyri-sabitlik şəraitində tərəfdaşlar qarşısında öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirən, onlara qaz tədarük edə biləcək stabil və etibarlı tərəfdaş kimi maraq kəsb edir. Ən əsası, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu enerji strategiyası Azərbaycanın müstəqilliyinin, rifahının və iqtisadi inkişafının əsasları ilə yanaşı, həm beynəlxalq, həm də regional miqyasda enerji təhlükəsizliyinə töhfə verən mühüm amilə çevrilmişdir.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 23 dekabr.- S.1;3.